**UOT821.512.161**

# REALİST ŞAİR CAHİD İLQAZ

**Barat OSMANOVA***

***Açar sözlər**: ictimai realist, Cahid İlqaz, türk şeiri, müharibə, sülh*

Cümhuriyyətin quruluşundan sonra türk cəmiyyətinin hər sahəsində hiss edilən mədəni dəyişikliklərin nəticəsi olaraq, türk ədəbiyyatında da əsaslı yeniliklər, müxtəlif cərəyanlar özünü göstərməyə başladı. Bu dövrdə Qərbin klassik və modern əsərlərinin türk dilinə tərcümə edilməsi, universitetlərdə yunan və latın dili və ədəbiyyatının tədris edilməsi, bir sıra ədəbi cəmiyyətlərin yaranması, toplumda və insanların dünya görüşlərində yeni düşüncə və müxtəlif fikirlərin formalaşmasına səbəb oldu və bu ədəbiyyata da öz təsirini göstərdi.

Türk ədəbiyyat tənqidçiləri bu dövrün ədəbiyyatında özünü göstərən bir-birindən fərqli ədəbi hiss və düşüncələri qiymətləndirərək, türk şeirini beş qrupa ayıraraq, təhlil edirlər:

1. Milli romantik cərəyan
2. İctimai realistlər (Toplumcu gerçekçiler)
3. I Yeni (Garip) şeir cərəyanı
4. II Yeni şeir cərəyanı
5. Saf şeir arayışları.

Biz burada türk şeirinin bu bölgüləri haqqında ayrı-ayrılıqda bəhs etmək fikrində deyilik. Lakin türk ədəbiyyat tənqidçilərinin, ictimai realist cərəyan haqqındakı fikirlərinə qısaca toxunub, bu cərəyanınnümayəndəsi Cahidİlqazın yaradıcılığından bəhs edəcəyik.

Türk alimlərinin fikrinə görə, ictimai-realist şeirin əsasını materialist ideologiya təşkil edir. Bununla belə, ictimai-realist şairlərin şeirlərində Kamalist ideologiyanın da təsiri olduğunu söyləyənlər də var. İctimai-realist şairlərin yaradıcılığını marksist ideologiyaya bağlamağa çalışan Əhməd Oktay yazır: "Öncü toplumcularımız, dönemin tek partili yönetimi karşısında durumu kurtarmak için Kemalist ideolojinin araçlarını ve yöntemlerini kullanarak, marksist kimliğini gizledirdiler" (1, s. 71).

Ədəbiyyatçı Həsən Bülend Qəhrəman da "Kemalist və Marksist terminologiyasında sanayileşmek, kentleşmek, halka və üretime yönelmek gibi bir-birinin benzeri olan bir hayli kavramsal ve ideolojik yakınlıklar vardır" (3, 51) deyərək Kamalist ideologiyanı, Marksist ideologiya ilə eyniləşdirməyə cəhd edir ki, bunu sübut etməyə ehtiyac vardır.

Ancaq bildiyimiz kimi ictimai realizm cərəyanına mənsub olan şairlərin sənət anlayışını insan və cəmiyyət təşkil edir ki, sənətkar insanı cəmiyyət içərisində ələ alır və onun cəmiyyətdəki rolunu müəyyənləşdirməyə çalışır, yeni düşüncə və ifadə ilə bunu dilə gətirir.

Onlar həmçinin "Garip" şairlərinin şeirlərini tam olaraq ictimai-realist şeirlər hesab etmir və Nazim Hikmət şeirinin xüsusiyyətlərindən istifadə edərək, o tərzdə yazdıqları ictimai-realist şeirləri, türk şeirinə qazandırmağa çalışırdılar.

Ədəbiyyat araşdırmaçısı Məhməd Fuad bu şairlər haqqında belə yazır:

*filologiya üzrə fəlsəfə doktoru, AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu

"Yazdıklarını yayınlama olanakları bile kısıtlı olan bu şairlər "Garip" akımını gerici bir akım olarak nitelediler. Hasan İzzetin Dinamo, Rıfat İlqaz, Cahid Irgat, A.Kadir, Niyazi Akınçıoğlu, Fethi Giray, Suat Taşer, Ömer Faruk Toprak, Şükran Kurdakul, Enver Gökçe, Mehmet Kemal, Arif Damar, siyasal düşüncelerinin belirlediği şiir anlayışına uymadığı için "Garip" akımının dışında kalmaya özen gösterdiler" (3, s. 240).

Bu baxımdan ictimai-realist şairlər içərisindəCahidİlqazın xüsusi yeri vardır.

Cahid İlqaz 1916-cı ildə Lüleburgazda anadan olmuşdur. İlk təhsilinə doğulduğu şəhərdə başlayan şair, orta təhsilini İstanbul Vəfa liseyində, sonra İstanbul Muallim məktəbində və daha sonra Ədirnə Öğrətmən Okulunda davam etdirmişdir. 1932-ci ildə Ankara Dövlət Konservatoriyasının teatr bölməsinə daxil oldu. 1932-ci ildə konservatoriyanı bitirmədən Parisə getdi. 1935-ci ildə Cahid Saffet imzası ilə ilk şeirini "Varlık" dərgisində çap etdirmişdir. Daha sonra "Servet-i Fünun", "Uyanış", "Yücel", "Ses", "Pınar", "Yığın", "Yürüyüş", "Ant" və "Yaprak" dərgilərində nəşr etdirdiyi şeirləri ilə diqqəti cəlb etdi.

1940-cı ildə "İstanbul Şehir Tiyatrosu"nda fəaliyyətə başladı. "Vişne Bahçesi" (1943), "Atinalı Timon" (1944), "Kral Oidipus" (1947) kimi pyeslərdə aldığı rollarla özünü bacarıqlı aktyor kimi də tanıtmışdır.

1939-cu ildən sonra "Garip" şeirinin təsiriylə yazdığı şeirlərini "İstanbul", "Dost", "Yeditepe", "Yeni Dergi", "Yeni Ufuklar", "Yelken" kimi dövrünün məşhur ədəbi jurnallarında çap etdirmişdir.

1945-ci ildə nəşr olunan "Bu şehrin Çocukları" kitabında toplanan şeirlərində daha çox "Garip" şeir cərəyanının təsiri hiss olunur. 1947-ci ildə çap olunan "Rüzgarlarım Konuşuyor" kitabında isə ictimai-realist mövzularda yazdığı şeirləri toplanmışdır. Üçüncü kitabı olan "Ortalık" 1952-ci ildə nəşr olunmuşdur. Bütün şeirləri isə 1969-cu ildə "Irgatın Türküsü" adı altında toplanaraq oxuculara təqdim olunmuşdur.

Cahid İlqazictimai-realist şeir anlayışından heç bir zaman uzaqlaşmamışdır. Bu cərəyanın nümayəndələri arasında Cahid İlqazın özünəməxsus önəmli yeri vardır. "Garip" şairlərinin şeir anlayışı ilə ictimai-realist şairlərin dünyagörüşünü birləşdirən və yaradıcılığında insanın cəmiyyət içərisindəki rolunu və yerini qələmə alan şair, türk poeziyasının qarşısında duran problemlər haqqında belə deyir:

"... indi əsl şeir yazmalı bir zamandır. Əsl danışmalı zaman. Dünən bugünkü nəslə bir şey hazırlamağa çalışdıq. Bu gün də sabah üçün daha gözəlini hazırlamaq lazımdır. Bütün bunlar mükəmməl şəkildə, ustalıqla və insani hisslərlə edilməlidir. İnsanı insan kimi qiymətləndirmək, insanı insanlığına qovuşdurmaq üçün" (2, s. 67).

Cahidİlqazın yaradıcılığında azadlıq mövzusu geniş yer tutur. O, ictimai-realist şair kimi daima ölkəsinin, xalqının həyatını, vəziyyətini, problemlərini öz şeirlərində əks etdirməyə çalışmışdır.

Şairin şeirlərində həssas, hüzünlü, kədərli bir lirizm vardır. Bu da təbiidir.

II Dünya müharibəsi və ondan sonrakı illərdə bütün dünyada olduğu kimi, Türkiyədə, müharibənin törətdiyi fəlakətləri yox etməyə, insanların arzu etdikləri həyatı yaratmağa çalışır. Bu ağır şəraitdə dizləri bükülmüş, işləməkdən tər içində qalmış insanların bir-birilə mehriban ünsiyyəti, səmimi münasibətləri insan sevgisini hər şeydən üstün tutan şairin şeirlərinin aparıcı mövsuzuna çevrilir. Cahid Irgatöz şeirlərinin mövzusu haqqında 1970-ci ildə "Yeditepe" jurnalında Mehmet Şeydaya verdiyi bir müsahibədə belə deyir:

"Bazı şiirlerim, hele toplatılan "Rüzgarlarım Konuşuyor" kitabındakı o kara devirde her babayiğidin edeceyi laflar değildi. Toplumumuzun özgür yaşaması yolunda kişisel özgürlüğümün kısıtlanmasına rağmen... Bugün bunlar unutulmuş gibi. Ama gün gelir ortaya çıkar belki gene. O kitabın

çıkışından dört buçuk yıl (ay değil) sonra Paris dönüşümün 16-cı sabahı götürülüşüm hala hatırımda... O şiirler mi etkiledi insanları? Toplumumuzun çeşitli sorunlarına, dertlerine değindi mi?.. Eğer öyle ise ne mutlu bana. Bunların bir kısmında espriye yer vermişsem, şiirimin daha etken olacağını düşündüğümden çok, o günlerde miracımın ve ortamın öyle oluşundadır, belki de" Bax:4.

"Bu şiirler istila görmüş şehirlere və II Dünya Harbinin felaketlerine dairdir" qeydi ilə çap etdirən Cahid İlqazın "Rüzgarlarım Konuşuyor" kitabı satışdan götürülmüş, özü isə həbs cəzasına məhkum edilmiş, üç ay zindanda yatmışdır.

Cahid İlqazın şeirlərinin əsas mövzularından biri də yaşama sevinci və insan sevgisidir. Bu mövzuları işləyərkən şair istismar olunan, aclıq, səfalət, yoxsulluq içində yaşayan insanları, onların yaşadığı ictimai şəraiti, müharibənin dəhşətləri, cəmiyyətdəki haqsızlıqları ilə yanaşı, humanist fikirlərini, azadlıq arzusunu, ədalət duyğularını da səmimi, istehzalı bir dillə qələmə alır.

"Əzilmişlər, əzilənlər ən əsas mövzudur mənim üçün. Eşq, sevgi şeirlərində belə budur ana xətt" deyən şair, sadə və anlaşılan bir dillə yazdığı bütün şeirlərində bu fikrə sadiq qalmışdır. Şair xalqın ağır vəziyyətini yaxından izləyir, onsuz da ağır olan həyat şərtləri ilə yanaşı, bir də dövlət tərəfindən aldadılaraq istismar edilməsinə qarşı öz etirazını bildirir:

*Halkın azını aldatırsınız*
*Her zaman*
*Halkın çoğunu aldatırsınız*
*Zaman zaman*
*Ama halkın tümünü?*
*Hiç bir zaman*
*Hiç bir zaman*
(Bax: 5)

deyən şairin hər zaman xalqın yanında olduğu açıq aydın görünür.

Şairin şeirlərində təbiətə münasibət də özünəməxsus şəkildə işlənmişdir. Bu şeirlərdə təbiət və insan yan-yanadır, bir-birinə bağlıdır, ayrılmazdır. Torpaq, torpaq olduğu üçün gözəl deyil, insanların ayaqlarına bulaşdığı üçün gözəldir. Şair "dəniz parçası mənə heç bir şey söyləmir" deyərkən, ancaq insanı fikirləşir. Ətrafındakı insanların bitməz, tükənməz ehtiyaclarını, sıxıntılarını hiss edən şair, çox sevdiyi dənizi belə, görmək istəmir.

Cahid İlqazın yaradıcılığında müharibə mövzusu da xüsusi yer tutur. Yaradıcılığında Orxan Vəlinin böyük təsiri hiss edilən şairin müharibə mövzusuna həsr etdiyi şeirlərində, dərin kədərlə yanaşı acı bir yumor özünü göstərir:

*Bombalarla şehirler*
*Kucak kuçağa*
*Ölülerle toprak.*
*Beni de alnımdan bir kurşun öptü.*
(2. s. 68)

Şair müharibə illərində yazdığı şeirlərini 1945-ci ildə "Bu Şehrin Çocukları" kitabında toplayaraq çap etdirmişdir. Bu şeirlərdə xalqa, kütləyə, cəmiyyətdəki kiçik insanlara, əsgərlərə, ustalara, fəhlələrə qarşı böyük rəğbət hiss olunur:

*Dost askerler, sıvacılar, garsonlar*
*Omuz omuza bu hincahınc insanlar*
*El tetikte*
*Göz gedikte*
*Senin için*
*Benim için*
*Ve yarın için*

(2, s. 65)

deyərək, öz xalqı üçün narahatlığını, onların gələcəyini düşündüyünü, bütün insanların xoş gələcəyi və rahat həyatı üçün mübarizə etdiyini göstərir. İnsanlara böyük sevgi və inam bəsləyən şair, bəşəriyyətin xoşbəxtliyi üçün müharibələri lənətləyir, sülh və əmin-amanlıq, azadlıq və ədalətin hökm sürdüyü bir dünya arzulayır. Və bu arzuların həyata keçməsi üçün çalışmağın, hər əzab-əziyyətə dözməyin də gərəkli olduğunu xüsusi vurğulayır:

*Değer mi, deme*
*Bu çektiğimiz?*
*Böylə yaşamanın da kahri çekilir.*
*Güzel günler uğruna*
*Böyle yaşamın da*

(2, s. 63)

Cahid İlqaz sanki II Dünya müharibəsinin dastanını yaradaraq, ona qlobal şəkildə yanaşmış, ön cəbhədə, hərb meydanlarında vuruşan insanlarla yanaşı, arxa cəbhədə öz əməyi və zəhməti ilə çalışıb, cəbhəyə kömək edən xalqın çəkdiyi ağır, acınacaqlı, məşəqqətli həyatını da parça-parça təsvir etmişdir. Hər iki cəbhədə də insanlar qəhrəmanlıqla vuruşmuş, mərdliklə həlak olmuşlar:

*Yalan söylemiyor bu dünya*
*Dostlarımı ensesinden vurdular*
*Bazımız kırbaç altında öldü*
*Bazımız harp meydanında*
*Ve bazımız gün doğmadan önce*
*Heykel gibi*
*Sıra sıra*
*Dar ağcalarında*

(2, s. 69)

Cahid İlqaz bu şeirində dünyada baş verən müharibə ilə, onun törətdiyi fəlakətləriylə Türkiyənin daxili vəziyyətini eyniləşdirir. Müharibə türk xalqının iqtisadi vəziyyəti ilə yanaşı, siyasi vəziyyətə də təsir edir, ölkə daxilində irtica hökm sürür.

Şair “Bulutları gözlərimdən boşaltdılar bir gecə” deyərkən, insanların yaşama haqlarının məhv edildiyini söyləmək istəyir:

*Ben bir harp esiriydim*
*Bulutları seviyordum, hürriyeti seviyordum*
*Insanları seviyordum, yaşamayı seviyordum*
*Bulutları gözlerimden boşalttılar bir gece*
(2, s. 62)

Faşizmin bütün dəhşətlərini, insanlara, bəşəriyyətə gətirdiyi bütün fəlakətləri dərindən anlayan şair, bununla belə bədbinliyə qapılmır, inanır ki, bir gün gələcək, müharibə qurtaracaq, faşizm darmadağın ediləcək, sülh, əmin-amanlıq yaradılacaq və şair bu inamla insanlara ümid verməyə çalışır, onları bir-birlərini sevməyə çağırır:

*Ağlamayı unutarak yaşamak*
*Yer altında, yer üstünde*
*Sevgi sevinc tarlasında*
*Aşk ve dostluk denizinde*
*Çocuklar gibi mağrur*
*Dertlerden uzak*
*Başlamakta şimdi huzur*
*Kardeşliğe, muhabbete*
*Hürriyyete inanarak*
(2, s. 64)

Gələcəyə, azadlığa ürəkdən inanan şair, ancaq şəxsi hisslərini tərənnüm edən, müasirləri olan bəzi şairlərdən fərqli olaraq, daha çox mühitindəki haqsızlıqları, ətrafdakı hadisələri ələ almağa çalışır. Əsgərlərin, fəhlələrin, məmurların, işsizlərin, məhkumların, əlillərin, yoxsulların və ümumiyyətlə bütün xalqın vəziyyəti ilə maraqlanır, onların dərdlərinə ortaq olur və bölüşmək istəyir:

*İnsan insan paylaşalım*
*Yaşamayı, komşuluğu, dostluğu*
*Bağdaş kurup yan-yana*
*Bir sahandan yiyelim*
*Dünyamızın sofrasından*
(2, s. 70)

Şairin qəlbində insanlara, insanlığa böyük sevgi və inam vardır.

Beləliklə, müharibənin fəlakətlərini ölkədəki haqsızlıqları, xalqın acınacaqlı həyatını görən, duyan, sülh, azadlıq arzusu ilə yaşayan şair o ağır illərdə gələcəyə olan böyük ümidini itirmir və xalqını da xoşbəxt gələcəyə inanmağa çağırır.

Hətta müharibənin dəhşətli nəticələrindən bəhs edərkən belə, yenə də insanları gələcəyə, xoşbəxt, azad günlərə ümid etməyə çağırır:

*Niçin yaşadığını, öldüyünü bilmeyen*
*Dert çeken dost*
*Çürüyen dost*

*Sizin için söylüyorum*
*Milyonlarca harp ölüsü adına*
*İyiliğin, kardeşliğin, ümidin*
*Aynı hakkın, hürriyetin*
*İnsanlığın şarkısını*
(6, 22)

"Rüzgarlarım Konuşuyor" kitabında da şair, özünə sadiq qalaraq, realist mövzularla yaradıcılığını davam etdirmişdir. Bu şeirlərdə ifadə tərzi və misra quruluşu cəhətdən "Garip" şeir cərəyanının şeir anlayışı ilə bir uyğunluq görülsə də bunu tam bənzərlik deyil, texniki paralellik kimi də qiymətləndirmək mümkündür.

Şairin üçüncü kitabı olan "Ortalık" 1952-ci ildə çapdan çıxmışdır.

Cahidİlqazbu kitabındakı şeirlərində ahəngə xüsusi önəm verir. Bunun üçün kəlimələrin təkrarından, xalq deyimlərindən, təkrarləmələrdən istifadə edir. Formaya xüsusi diqqət göstərir. "Ağac" şeirini buna ən gözəl nümunə olaraq göstərə bilərik:

*Ağacım, dört kol çengi kıyamet*
*Her dalımda bir memleket*
*Uzar, kollarım uzar*
*Taşımda toprağımda bereket*
*Köklerimden başlar hürriyet*
*Bana çarptıkça anlar*
*Yağmur, yağmur olduğunu*
*Rüzgar, rüzgar*
*Taşımda toprağımda kıyamet*
*Köklerimden başlar hürriyet*
(6, s. 23)

Bu şeirdə şair vətəninin hər hansı bir ağacından bəhs edərkən belə, daşına, torpağına, möhtəşəm əzəmətinə, ədalətinə sevgisini "köklerimden başlar hürriyet" deyərək, dünyaya hayqırır. Bu şeirdə "Garip" şairlərindən olan Melih Cevdet Andayın "Rahatı Kaçan Ağac" şeirinin birbaşa təsiri duyulur.

1969-cu ildə nəşr edilən "Irgatın Türküsü" kitabı çap olunmamış şeirləri də əlavə edilərək şairin oğlu tərəfindən 1981-ci ildə yenidən çap olunmuşdur.

Beləliklə, haqqında çox az danışılan və yaradıcılığı geniş tədqiq olunmamış bu şairi Can Yücel bir şeirində gözəl xarakterizə edir və biz də bu kiçik araşdırmamızı həmin şeirlə bitirmək istəyirik:

*Cahid ki, bu hasta düzende sağlıklı bir kanserdi*
*Cahid ki, haksızlığa karşı üreyen hücrelerdi*
*Yorğun develer gibi çöktüğü Dormen şölenlerinde bile*
*"Siz paranızı, ben kendi kendimi yerim" derdi*
*Cahid zaten azalarak yaşayanlardan değil*
*Çoğalarak ölenlerdendir*
(Bax: 5)

**Cahidİlqazın şeir kitabları:**
Bu şehrin Çocukları, İstanbul, 1945
Rüzgarlarım Konuşuyor, İstanbul, 1947
Ortalık, İstanbul, 1952
Irgatın Türküsü, İstanbul, 1969
Əlavələrlə 1991
Romanları:
Geri Dönemezsin, İstanbul, 1947
İnsan Kafesi (1971-ci ildə "Milliyet" qəzetində hissə-hissə çap olunmuşdur)

## ƏDƏBİYYAT


1. Əhməd Oktay. Cumhuriyet Dönemi Edebiyatı (1923-1950), Ankara, 1993
2. Anıl Meriççəlli. İyi yürekli şair – Cahid Irgat. "Papirüs" 1969, sayı 35
3. Emin Özdəmir. Türk ve Dünya Edebiyatında Dönemler, Yönelimler, İstanbul, 1999
4. Həsən Bülənt Qəhrəman. Türk Şiiri. Modernizm.Şiir, İstanbul, 2000
5. https:/www.qazete-duvar.com.tr/kitap2018/11/24/ şair Cahid ırgata selam
6. https:/www.biyografi.info/kişi/Cahidırgat
7. Oğuzxan Yetişti. Cahid Irgatın Hayatı. Sanatçı kişiliği ve Eserleri. "Erciyes" dergi, sayı 466, Ekim 2016



***Резюме***

***Барат Османова***

***Поэт реалист Джахит Илгаз***

***Ключевые слова:*** *общественный реалист Джахит Илгаз, тюркский стих, война, мир*

После создания республики в результате социально-политических и культурных изменений, которые коснулись всех сторон жизни общества, в турецкой литературе стали проявлять себя различные течения и появились новшества. Под этим влиянием в 1930-х годах в турецкой поэзии начали формироваться общественно-реалистические идеи, и многие поэты стала писать стихи на тему проблем, существовавших в мире и в стране. Одним из таких поэтов является Джахит Иргаз. Первое стихотворение поэта «Гарип» было опубликовано во многих литературных журналах того времени. В 1935 году была издана его первая книга стихотворений "Дети этого города". В книге под названием «Мои говорящие ветры» изданной в 1947 году были собраны стихи поэтов, пишущих на социально-реалистические темы. Третий сборник стихов «Орталык» (Средний) вышел в 1952 году.

Основные темы поэзии автора - тяжелое положение людей, социальное неравенство, несправедливость в стране, Вторая мировая война, повлекшая гибель гибель людей, катастрофы, мир, стремление к свободе, будущее человечества и надежда на светлое будущее.

**_Summary_**

**_Barat Osmanova_**

**_Realist poet Jahit Ilgaz_**

**Key words:** *Social realist, Jahit Ilgaz, Turkish poetry, the war, the peace*

After the declaration of the Turkish republic and as a result of social, cultural and political changes that affected all aspects of society, fundamental innovationsand various trends began to appear in Turkish literature. Under the influence social-realistic ideas were formed in Turkish poetry in the 1930s, and many poets began to write poems about the problems existed in the country and in the world, including Jahit Ilgaz.

The first poem of the author “Garip” was published in many literary journals of that time. His first book of poems “Children of this city” was published in 1935. In a book “My Talking Winds”, published in 1947, poems were written by the authors that wrote on social-realistic themes. The third poetic book “Ortalyk” (Medium) was published in 1952. The main ideas of the author's poetry are the plight of a people, social inequality, injustice in the country, the Second World War, which caused the death of people, disasters, peace, and the desire for freedom and hope for a bright future.